





**İyunun 4-dən 6-dək Bakıda keçirilən Formula 1 üzrə dünya çempionatının altıncı – Azərbaycan Qran pri yarışları başa çatdı. 20 döngəli, uzunluğu 6 kilometr olan yarış trekində 10 komandadan 20 pilot birincilik uğrunda mübarizə aparırdı. Bakı Şəhər Halqasında dünyanın ən məşhur pilotları – Luis Hamilton, Fernando Alonso, Sebastian Fettel, Valtteri Bottas və digərləri yarışırdılar. Formula 1 Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının meksikalı pilotu Serxio Peresin qələbəsi ilə başa çatdı. S.Peres Bakı şəhər halqasında 51 dövrəni hamıdan tez (1:44.703) başa vuraraq podiumda birinci pillənin sahibi oldu. İkinci yeri "Aston Martin" komandasının almaniyalı pilotu Sebastian Fettel (1:45.138) qərarlaşdı. "AlphaTauri" komandasının fransalı pilotu Pyer Qasli (1:45.588) isə yarışı üçüncü sırada tamamladı.**

# Formula 1 Azərbaycan Qran prisi beynəlxalq mediada










Bakının beşinci dəfə evsahibliyi etdiyi, ən məşhur və ən bahalı idman yarışlarından olan 2021 Azərbaycan Qran pri yarışları başladığı tarixdən dünya mediasında gündəm oldu. İngiltərə, Fransa, Almaniya, İtaliya, Rusiya, Yaponiya və digər ölkələrin məşhur xəbər saytlarında, idman portallarında Azərbaycan Qran prisi haqqında mütəmadi və geniş informasiyalar verildi. Bu saytlarda canlı yayımlanacaq yarış qrafiki ilə yanaşı, Bakı Şəhər Halqası, idmançıların son illər qazandığı təcrübə, hazırlıq səviyyəsi və s. barədə fikirlər də yer alıb, tanınmış idman yazarlarının şərhləri yerləşdirilib.

Ötən illərdə olduğu kimi, bu dəfə də transmilli TV-lərdə, beynəlxalq informasiya agentliklərinin saytlarında Formula 1 Azərbaycan Qran prisinin gedişatı, pilotların çıxışları ilə yanaşı, Bakı trekinin unikallığı, yarışların təşkili ilə bağlı süjetlər, audio-video materiallar yayımlanıb. İdman jurnalistlərinin süjetlərində ekspert təhlili və müzakirələrdə Azərbaycan Qran prisinin Formula 1 yarışında yeri şərh edilib.

Formula 1 yarışlarının rəsmi səhifəsi www.formula1.com saytında yarışların təşkili, gedişatı, pilotların göstərdiyi nəticələrə bağlı ətraflı informasiyalar verilib. Məlumatlarda qeyd edilir ki, Bakı Şəhər Halqasında Formula 1 yarışları 2016-cı ildən təşkil olunur. Yalnız ötən il koronavirus pandemiyası səbəbindən dünya çempionatının Azərbaycan mərhələsi təxirə salındı. Bakı Şəhər Halqası şəhərin tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqama xüsusi diqqət yetiriblər. Bundan başqa, trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əksi istiqamətindədir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir. Layihənin müəllifi bütün müasir Formula 1 treklərinin memarı olan Herman Tilkedir.

Formula 1 saytında yarışlarda xüsusi köməkçi Kris Mediandın "Flexi qanadları, Ferrari forması və qəribə bir Bakı rekordu – beşinci Azərbaycan Qran-Pri hekayəsi" adlı yazıda deyilir: "Çempionluq mübarizəsi mövsümündə beş il möhtəşəm bir ev sahibliyi təqdim edən məkana – Bakıya gedirik. Nadir xüsusiyyətlərə malik Bakı Şəhər Halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları paytaxtın müasir memarlıq abidələrini və şəhərin ecazkar mənzərəni görürlər". Məqalədə yarışın yüksək təşkilatçılığından, pilotların performansından danışılır.

Formula 1 saytında yayımlanan informasiyaların birində "Ferrari" komandasının yürüş üzrə baş mühəndisi Matteo Toninallinin Bakı trekti haqqında fikirləri xüsusilə maraq doğurur: "Bakının cəmi bir neçə il ərzində Formula 1 təqvimində özünəməxsus yeri olan bənzərsiz trası var. Bu, çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. İkinci sektor aşağı sürətlə hərəkət etməli olduğumuz çoxlu sayda döngələrdən ibarətdir. Həmin döngələrdəki orta sürət Monakodakı trasda olduğundan da aşağıdır. Burada sıxılan güclə sürət arasında uyğunlaşmanı dəqiq tapmaq lazımdır".

BBC media yayım şirkətinin radio, televiziya və internet saytında Bakıda keçirilən Formula 1 yarışlarına geniş yer ayrılıb. BBC Sport, BBC Sport veb saytında və BBC Radio 5, Live Sports Extra-da yarışların canlı yayımı, tamaşaçılarla qarşılıqlı əlaqə, ekspert təhlili, müzakirə, səsvermə, müsahibələr və xüsusi olaraq Azərbaycan Qran-pri yarışlarının təşkili, pilotların təhlükəsizliyinin təminatı ilə bağlı əhatəli informasiyalar yayımlanıb.

BBC-nin idman yazarı Andrev Benson BBC Sport saytında Formula 1 Azərbaycan Qran prisi haqqında silsilə məqalələrlə çıxış edib. Müəllif Bakı Qran prisinin beşinci dəfə keçirilməsini vurğulayaraq yarış barədə ətraflı məlumat verir, idmançıların rəqabət qabiliyyətini şərh edərək nəticələrini qiymətləndirir. Andrev Benson son yazısında "Red Bull Racing Honda" komandasının meksikalı pilotu Serxio Peresin qələbəsini şərh edir. Formula 1-in rəsmi saytında azarkeşlər arasında təşkil olunan sorğuda "Aston Martin" komandasının almaniyalı pilotu Sebastian Fettelin Formula 1 Azərbaycan Qran prisində "Günün pilotu" seçilməsini xüsusi vurğulayır.

Fransanın idman saytlarında da 2021 Formula 1 Azərbaycan Qran prisi haqqında informasiyalar, idman şərhləri üstünlük təşkil edib. Auto-news.fr saytında müəllif Francesco Magonun qələmə aldığı "Formula 1 Azərbaycan Qran Prisi: Pulsuz təcrübənin nəticələri" sərlövhəli məqalədə, ouest-france.fr saytında isə "F1 Azərbaycan Qran Prisi" adlı idman şərhində Azərbaycanın yarışlara ciddi hazırlığı, yüksək təşkilatçılıq və təhlükəsizlik məsələləri müsbət qiymətləndirilir. İdman şərhində qeyd edilir ki, pilotlara yarışda yegane narahatlığı külək yaradırdı: " Sürüşkən yolda Bakı küləyi Nikita Mazepini aldatdı".

Türkiyənin motorsport.com idman saytında Beynəlxalq Avtomobil Federasiyasının (FIA) rəsmisi Maykl Masi 2021 Formula 1 Azərbaycan Qran pri yarışlarına hazırlığı belə qiymətləndirib: "Azərbaycana yenidən gəlməkdən və həmçinin Azərbaycan Avtomobil Federasiyasının və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin hər bir əməkdaşı ilə birlikdə işləməkdən çox məmnunam. Ümid edirəm ki, bu il biz Bakı trekində növbəti möhtəşəm yarışa şahid olacağıq. Bu tədbir aylar əvvəl başlanılan tikintidən cümə axşamı günü məşqşəmlərin trekdə keçirəcəyi simulyasiya təlimlərinə qədər davam edən uzun müddət ərzində görülmüş böyük hazırlıqlar nəticəsində ərsəyə gəlib. Keçirdiyimiz baxış əsasında deyə bilərəm ki, Bakı Şəhər Halqası yarış üçün əla vəziyyətdədir". Yazıda həmçinin 2021 Formula 1 Azərbaycan Qran prisinin iştirakçılarının fikirləri də yer alıb.

2021 Formula 1 Azərbaycan Qran Pri yarışları Rusiya xəbər saytlarının da diqqət mərkəzində olub. TASS İnformasiya Agentliyinin saytında - tass.ru "2021 Formula 1 Azərbaycan Qran Prisi tamaşaçısız keçiriləcək" sərlövhəli yazıda Bakı Qran prisinin qlobal pandemiya ilə əlaqədar olaraq tamaşaçısız keçəcəyi qeyd olunur. Yazıda həmçinin yayda, Bakının 2021-ci il iyunun 11-dən iyulun 11-dək keçiriləcək futbol üzrə Avropa çempionatının üç qrup mərhələsi və dördə bir final görüşlərindən birinə ev sahibliyi edəcəyi haqda məlumat verilir. F1news.ru, sports.ru idman saytlarında da yarışlar gündəlik olaraq işıqlandırılıb. Sports.ru saytında yayımlanan "Azərbaycan Qran Prisini izləmək üçün beş səbəb" adl idman şərhində Bakı trekinin unikallığından, pilotların rəqabət imkanlarından söhbət açılır.




Almaniyanın Auto motor sport, TZ sport saytlarında Azərbaycanın Fotmula 1 yarışlarına beşinci dəfə ev sahibliyi etməsi xüsusi vurğulanıb. Auto motors idman saytında qeyd edilir ki, Bakı şəhər trası, sürüşkən asfalt və özünəməxsus ssenarisi ilə stasionar traslardan geri qalmır: "Paytaxt Bakıda sürətli küçə dövriyyəsinə zəmanət verilir. Möhtəşəm marşrut Formula 1 ustası, inşaatçı Hermann Tilke tərəfindən dizayn edilmişdir".

Formula 1 Azərbaycan Qran prisi Yaponiya idman mediasının əsas mövzusu olub. Populyar idman saytları jp.motorsport.com və as-web.jp Azərbaycan Qran prisi haqqında ətraflı məlumat yayıb. Yerli oxuculara yarışda iştirak edəcək idmançıların son illər qazandığı təcrübə, hazırlıq səviyyəsi, Bakı treki haqqında fikirlər təqdim olunub.

İtaliyanın idman saytlarında da Formula 1 Azərbaycan Qran pri yarışları keçirildiyi gündən etibarən gündəm olub. Bu ölkənin gazzetta motori.it, sky sport.it, formula passion.it, circusf1.com kimi məşhur idman saytlarında yarışların qrafiki, Formula 1-in gedişatı, pilotların təəssüratları, komandaların məşqçilərinin fikirləri yer alıb.

Formula 1 Azərbaycan Qran pri yarışlarına start verildiyi gündən etibarən beynəlxalq mətbuatda yayımlanan informasiyalarda Azərbaycanın evsahibliyi, yüksək təşkilatçılığı, Bakı şəhər trekinin unikallığı, ümumiyyətlə Azərbaycan haqqında məlumatlar qürur doğurur.

*Leyla RƏŞİD, "Xalq qəzeti"*